UOT 327

LEYLA MUSTAFAYEVA
Bakı Dövlət Universitetinin
Politologiya və Sosiologiya kafedrasının doktorantı və müəllimi
leilamustafayevaaa@gmail.com

CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/131-134

Məqalə Cənubi Qafqazdakı təhlükəsizlik məsələlərini analiz edir. Regionun geostrateji mövqeyini və geosiyasi əhəmiyyətini nəzərə alaraq dövlətlərin regiondakı maraqları işıqlandırılmışdır.Eyni zamanda məqalədə regionda yerləşən dövlətlərinin təhlükəsizliyə verə biləcəkləri mümkün töhfələr təhlil olunur.Bu kontekstdə Azərbaycanın regionda rolu və təhlükəsizliyə verə biləcəyi töhfə ön plana çıxır.Beləki ölkəmizin iqtisadi-siyasi qüdrəti Qarabağ zəfəri kontekstində bir daha sübut olundu.

Açar sözlər: Cənubi Qafqaz, təhlükəsizlik, geosiyasət, geostrategiya, regional problemlər.

Giriş. Cənubi Qafqaz regionunun təhlükəsizlik məsələləri özündə bir neçə məsələləri əks etdirir. Geostrateji mövqe, geosiyasi məsələlər, enerji təhlükəsizliyi, etnik-mədəni amil təhlükəsizlik məsələlərinə təsir edən faktorlardandır. Xəzər dənizi coğrafi mövqey baxımdan Avrasiyanın mərkəzində yerləşir. Bu dəniz üzərində nəzarəti ələ keçirməklə, eyni anda, Orta Asiyaya, Rusiyaya, İrana və Cənubi Qafqaza təsir göstərmək olar. Bu səbəbdən sözügedən regionu Avrasiyanın "dayaq nöqtəsi" hesab etmək mümkündür. Heç təsadüfi deyil ki, Z.Bzejinski Cənubi Qafqazı "Avrasiyanın Balkanları" kimi təsvir edir və qeyd edirdi ki, sözügedən region hegemon olmaq istəyən dövlətlərin mübarizə meydanıdır (2, s.67). Regionun Qara dəniz və Xəzər dənizi arasında yerləşən bir bölgə olması, enerji və nəqliyyat xətlərinin bu ərazidən keçməsi, Xəzər hövzəsinin zəngin enerji mənbələrinə sahib olması baxımından böyük əhəmiyyət kəsb etməkdədir. Cənubi Qafqaz önəmli geosiyasi mövqeyə sahibdir və təhlükəsizlik sahəsində baş verən dəyişikliklər regionun təhlükəsizlik məsələsini daha da aktual edir. Sovet İttifaqının dağılmasından sonra regionda yeni reallıqlar siyasi, təhlükəsizlik və iqtisadi motivlərlə özünü daha qabarıq büruzə vermişdir. Bölgədə üç müstəqil dövlətin qurulması Cənubi Qafqazda yeni tarazlığın formalaşmasına səbəb olmuşdur (10, s.50).

1990-cı illərdən sonra sadəcə region dövlətləri deyil, böyük dövlətlər də Cənubi Qafqazda geosiyasi mübarizənin aktorları olmuşdur (1, s.33). 1994-cü ilin yanvarında NATO-nun Cənubi Qafqaz regionunda yaranmış situasiya ilə bağlı narahatlığı Şimali Atlantika Şurası tərəfindən qəbul edilmiş Bəyannamədə özünü əks elətdirir. Bəyannamədə ərazi işğal etmək məqsədilə gücdən istifadə edilməsi pislənir və Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət regionda sülhün, sabitliyin və əməkdaşlığın bərqərar olmasının vacib amil kimi səciyyələndirilir. Qeyd etmək lazımdır ki, son yüzillikdə dünya ölkələrinin əlaqələrinin və inteqrasiya proseslərinin genişlənməsi, siyasi mənada yer kürəsinin "kiçilməsi" bir çox qlobal problemlərin ortaya çıxmasına gətirib çıxarmışdır ki, bu da təbii olaraq yerli və regional problemlərin yaranmasına gətirib çıxardır.

XXI əsrdə ekoloji problemlər, enerji çatışmazlığı, ərzaq qıtlığı, əhali artımı ilə bağlı problemlər çox ciddi təhlükələrin yaranmasına səbəb ola bilər ki, bu vəziyyət istisnasız olaraq bütün ölkələrə, o cümlədən Cənubi Qafqaz ölkələrinə ciddi təhlükələr vəd edir. Başqa sözlə desək, Cənubi Qafqazda təhlükəsizlik məsələləri dünya miqyasında mövcud olan bu problemlərlə birbaşa əlaqəlidir. Eyni zamanda vurğulamaq lazımdır ki, Azərbaycanın geniş mənada təhlükəsizliyi bu problemlərin həllindən və qlobal təhldidlərin qarşısının alınmasından keçir. Azərbaycan Respublikasının qanunvericiliyində milli təhlükəsizliyin təminatının əsas prinsipləri. Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edilməsi, milli təhlükəsizliyi təmin edən orqanlar arasında səlahiyyətlərin dəqiq müəyyən edilməsi, onların fəaliyyətinin əlaqələndirilməsi və həmin orqanların bir-birini qarşılıqlı surətdə operativ məlumatlandırması, beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya, insan, cəmiy-

yət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyəti kimi məsələlər təsbit olunmuşdur.

Təhlükəsizlik anlayışı dar və geniş mənada anlaşılır. Regionun təhlükəsizlik məsələlərini tədqiq edərkən hər şeydən əvvəl regionda yerləşən ölkələrin təhlükəsizliyinə olan real təhdidlər müəyyənləşdirilməlidir. "Təhlükəsizlik" və "təhlükə" və ya "təhlükəsizlik" və *"real təhdidlər" qarşılıqlı əlaqədə olan məfhuml*ardır və birgə təhlil olunmalıdır (4, s.73). Təhlükələr mövcud eyni zamanda gözlənilən problemlərlə bağlı ola bilər. Hər bir ölkə üçün təhlükələr yerli, regional və qlobal kimi qruplaşdırıla bilər. Adətən bir çox yerli problemlər regional və qlobal problemlərin yerlərdə və ya regionda təzahürüdür. İctimaiyyətin geniş təbəqəsi yerli və regional problemləri qlobal problemlərdən daha tez hiss edir.

Qeyd etdiyimiz kimi, Cənubi Qafqazın geosiyasi əhəmiyyəti istər potensialına, istərsə də geostrateji mövqeyinə görə olduqca vacibdir. Bu region həm xanmal mənbəyi olaraq, eyni zamanda da ümumilikdə Xəzərin enerji resurslarının Avropaya ixrac edilməsində mühüm rol oynayır (7, s.91).

Cənubi Qafqazda təhlükəsizlik təmin edilməsi və sabitliyin qorunmasında əhəmiyyətli faktorlardan biri də, sadəcə bölgə dövlətlərinin deyil, supergüc və böyük dövlətlərin özlərinə məxsus iqtisadi, hərbi və siyasi maraqlarının təmin edilməsi istiqamətində təhlükəsizlik mexanizmləri qurmağa təşəbbüs göstərmələridir. Belə ki, ABŞ, Rusiya, və Avropa İttifaqı ölkələri bölgədə öz mənfəətlərinə uyğun gördükləri təhlükəsizlik sistemini qurmağa çalışırlar (9, s.40).

Gürcüstannın siyasəti NATO-nun təhlükəsizlik sisteminə inteqrasiyaya yönəlikdir, Azərbaycan NATO ilə münasibətlərini möhkəmləndirməyə, Rusiyaya olan münasibətdə balanslaşdırılmış siyasət həyata keçirdir, Ermənistan isə birmənalı şəkildə Rusiyanın liderliyində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının təhlükəsizlik sisteminə daxil olmuşdur. Bölgədə təhlükəsizliyinin təmin edilməsi üçün əməkdaşlıq davam edərkən, Azərbaycan və Gürcüstan bölgə və beynəlxalq sistem ilə siyasi və iqtisadi münasibətlərini daha da genişləndirməyə çalışır. Tərəflər Bakı-Tbilisi-Ceyhan layihəsində əməkdaşlıq etməklə münasibətlərini daha da inkişaf elətdirirlər (6, s.80). Ermənistan isə siyasi və iqtisadi siyasətində Rusiyaya üstünlük verərək bu prosesdən kənarda qalır və Rusiaynın öz üzərində ağalığını qəbul etdi. Bununla da Ermənistan əslində ABŞ-ın Cənubi Qafqazda həyata keçirdiyi siyasətin qarşısında sözün əsl mənasında parçalayıcı rol oynayır. ABŞ bunun üçün Ermənistanı Rusiyanın siyasi orbitindən kənarlaşdırmaq və Cənubi Qafqazı regionunu bütövlükdə Qərbə inteqrasiya etdirmək üçün hərtərəfli səyləri göstərir (8, s.17). Lakin Ermənistanın yürütdüyü siyasətin uğursuzluğu nəinki onu Rusiyanın ağalığından çıxarda bilmir, eyni zamanda Qərbə inteqrasiyasına mane olur.

Yürütdüyü paraqmatik xarici siyasət sayəsində Azərbaycan regionun aparıncı dövlətinə çevrilməklə bərabər regionun təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini vermişdir. NATO ilə əməkdaşlıq etməklə regionun təhlükəsizliyinin təmin olunmasına Azərbaycan bir başa aktor kimi çıxış edir. Azərbaycan müstəqilliyini əldə etdiyi ilk gündən əlverişli geostrateji mövqeyindən düzgün istifadə etdiyi üçün regionun aparıcı dövlətinə çevrilmişdir. Bunu Cənubi Qafqazın yeni və köhnə geosiyasi reallıqlarını müqayisə edərək daha aydın anlaya bilərik. Rusiya əvvəllər Cənubi Qafqazda nəzarəti tam əlində saxlamaq üçün Qarabağ münaqişəsindən maksimum dərəcədə istifadə edirdisə, bu gün Azərbaycan bütün reallıqları öz xeyrinə dəyişdi. Azərbaycan geostrateji, eyni zamanda geosiyasi baxımdan əlverişli məkanda yerləşir. Regionda həyata keçirilən beynəlxalq layihələr və bu layihələrdə Azərbaycanın əsas söz sahiblərindən biri olması dövlətimizin iqtisadi gücünü artırmaqla yanaşı, eyni zamanda beynəlxalq arenada onun nüfuzunun daha da yüksəlməsində mühüm əhəmiyyətli rol oynayır. Cənubi Qafqaz regionun karbohidrogen ehtiyatlarının işlənməsinə aid qlobal layihələr, əlbəttə, Azərbaycansız təsəvvür edilə bilməz. Azərbaycanın unikallığı ilə təkcə istehsalçı olması ilə deyil, eyni zamanda tranzit ölkə kimi çıxış edərək, öz məhsullarını və Orta Asiya respublikalarının məhsullarını Avropaya çıxaran tranzit dəhlizi olması ilə bağlıdır (3, s.55). Bunu həm də Avropa dövlətləri də dərk edir. Prezident İlham Əliyevin də hər zaman qeyd etdiyi kimi, Azərbaycan artıq böyük bir regional amildir: sabitlik, təhlükəsizlik və inkişaf amilidir. Sözün əsl mənasında Azərbaycan bu sadalananları özündə əks elətdirir, buna misal olaraq İkinci Qarabağ müharibəsini göstərə bilərik.

İkinci Qarabağ müharibəsi Azərbaycanın öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizəsi idi. Vətənimizin şərəf məsələsi olan bu müharibə əsgər və zabitlərimiz qəhrəmanlıq göstərməsi, düşmənə sarsıdıcı zərbələr endirirməsi, düşməni torpaqlarımızdan canı-qanı bahasına qovması hesabına həll olmuşdur. Qəhrəman oğullarımız tarixi ədaləti bərpa etdi. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücuma keçməsi, yeni ərazilərimizi işğal etmək məqsədilə hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra Azərbaycan Ordusu beynəlxalq hüquq və ədalət prinsiplərinə əsaslanaraq, torpaqlarımızda düşmənə sarsıdıcı zərbələr endirməklə, ərazi bütövlüyümüz uğrunda əks-hücuma keçdi. İşğalçı Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin - Müzəffər ordumuzun sarsıdıcı zərbələrinə davam gətirməyib böyük miqdarda canlı qüvvə və texnika itirir. Lakin aqressor-işğalçı olan Ermənistan ənənələrinə sadiq qalaraq, uğursuzluqlarını ciddi şəkildə kiçildir, Azərbaycan tərəfinin mütləq qələbələrini gizlədir. Ermənistan hökuməti tərəfindən düşünülmüş şəkildə yayılan dezinformasiyaların məqsədi, məramı qorxu və təşvişə düşən erməni əhalisinin diqqətini yanlış informasiyalarla əsl həqiqətdən yayındırmaqdan ibarət idi.

Nəticə. Qırx dörd gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi parlaq qələbə ölkəmizin regionda və beynəlxalq arenadakı nüfuzuna əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. Qarabağ zəfəri, eyni zamanda, işğalçı Ermənistan üçün olduqca vacib tarixi dərsdir. Ermənistan bu məğlubiyyətdən və tarixi dərsdən lazımi nəticə çıxarmalı, gələcəkdə yeni təxribatlara yol verməməlidir. Dövlətimizin başçısı cənab İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, heç kim Azərbaycanla təzyiq dilində danışa bilməz. Bundan əlavə hər zaman Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyindən də ciddi narazı olduğunu diqqətinə çatdırırdı. Ermənilər Azərbaycanın torpaqlarına görə hər cür şərəfsizlik etməkdən və qan tökməkdən əl çəkmirlər. Bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Bütün bunlara baxmayaraq otuz il danışıqlar getdi. Otuz il ərzində xalqımız ümidlə yaşadı ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün mümkün bütün səyləri yerinə yetirəcək. Əfsus ki, BMT-nin qətnamələr necə ki, məcburi xarakterli olmadı elə də 27 ildir kağız üzərində qaldı (5, s.72). Qarabağ zəfərinin çalınmasında eyni zamanda Azərbaycan Respublikasının güclü ordusunun, sosial-iqtisadi islahatların, aparılan informasiya müharibəsinin rolunu xüsusi vurğulamaq lazımdır. Müvafiq sadalanan amillər qalibiyyətimizi mütləq etdi. Beləliklə, İkinci Qarabağ müharibəsi Cənubi Qafqazdakı bütün reallıqları dəyişdi.

ƏDƏBİYYAT

1. Ağalar Abbasbəyli. Dünya siyasəti: XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri. Bakı, Nurlar nəşriyyatı, 2011, 584 s.
2. Əli Həsənov. Azərbaycanın geosiyasəti. Bakı, Zərdabi nəşriyyat, 2015, 700 s.
3. Əli Həsənov. Geosiyasət. Bakı, Aypara-3 nəşriyyat, 2010, 604 s.
4. Buzan Barry. People, State and Fear: An Agenda for International Security Studies in the Post Cold War Era. London, Harvester Wheatsheaf Publication, 1991, 590 p.
5. Babaoğlu Hikmət. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı, Çinar-Çap, 2011, 562 s.
6. Kərimov C., Kərimova T. Beynəlxalq münasibətlər və xarici siyasət. Bakı, ADPU nəşriyyatı, 2013, 347 s.
7. Məmmədov Novruz. Geosiyasətə giriş: II cild: Müasir geosiyasi proseslər. Bakı, Azərbaycan nəşriyyatı, 2011, 412 s.
8.Thomas de Waal. The Caucasus. London, Oxford University Press, 2010, 295 p.
9. Zbigniew Brzezinski. The Grand Chessboard. USA, Basic Books publishing, 1997, 201 p.
10. Zbigniew Brzezinski. Political Power: USA/USSR, with Samuel Huntington. New York: Viking Press, April 1963, 450 p.

ЛЕЙЛА МУСТАФАЕВА
Преподаватель кафедры Политологии и Социологии
факультета Международных отношений и Экономики
Бакинского Государственного Университета

ВОПРОСЫ БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ

В статье анализируются вопросы безопасности на Южном Кавказе, с учетом геостратегического положения и геополитической важности региона подчеркиваются интересы государств в регионе. В то же время в статье анализируется возможный вклад стран региона в безопасность, в этом контексте на первый план выходит роль Азербайджана в регионе и его вклад в безопасность. Экономическая и политическая мощь нашей страны еще раз доказана в контексте победы в Карабахе.

Ключевые слова: Южный Кавказ, безопасность, геополитика, геостратегия, региональные проблемы.

LEILA MUSTAFAEVA
Phd Candidate in political science,
Lecturer at Baku State University,
Faculty International Affairs and Economy,
Department Politology and Sociology

SECURITY ISSUES IN THE SOUTH CAUCASUS

The article analyzes security issues in the South Caucasus. Taking into account the geostrategic position and geopolitical importance of the region, the interests of states in the region are highlighted. At the same time, the article analyzes the possible contributions of the countries in the region to security. In this context, the role of Azerbaijan in the region and its contribution to security come to the fore. The economic and political power of our country has been proved once again in the context of the Karabakh victory.

Key words: South Caucasus, security, geopolitics, geostrategy, regional problems.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 oktyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Sevinc Yusifzadə.